# "Syntax" QSC-nin 2019-cu il üzrə

# İdarəetmə Hesabatı

**1. Emitentin tam və qısaldılmış adı, VÖEN-i, dövlət qeydiyyatının tarixi və nömrəsi:**

1.1. Tam adı: **"Syntax" Qapalı Səhmdar Cəmiyyəti**

1.2. Qısaldılmış adı: "Syntax" QSC

1.3. VÖEN-i: 1502568721

1.4. dövlət qeydiyyatının tarixi və nömrəsi: 28 aprel 2014-cü il, № 1502568721

**2. Emitentin hüquqi ünvanı və olduğu yer:**

2.1. Hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu, Yusif Vəzir Çəmənzəminli küçəsi, ev 61.

2.2. Faktiki ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu, Tələt Şıxaliyev, 14

**3. Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları:**

3.1. "Syntax" QSC, 28 aprel 2014-cü il tarixdə 1502568721 qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmış "Syntax" Məhdud Məsuliyyətli Cəmiyyətinin adının və təşkilati-hüquqi formasının dəyişməsi ilə yenidən təşkil edilmişdir və onun hüquqi varisidir.

**4. Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar:**

4.1 “Syntax” QSC-nin təsis edildiyi tarixdən bu Hesabatın hazırlandığı tarixədək filialı yaradılmamışdır.

**5. Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti;**

5.1. “Syntax” QSC-nin təsis edildiyi tarixdən bu Hesabatın hazırlandığı tarixədək törəmə cəmiyyəti yaradılmamışdır.

**6. Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı:**

6.1. “Syntax” QSC heç bir şirkətlər qrupunun hissəsi deyil.

**7. Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri:**

7.1. İT fəaliyyəti.

**8. Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri:**

8.1. “Syntax” QSC lisenziya tələb edilməyən fəaliyyətlə məşğuldur.

**9. Emitentin təklif etdiyi məhsullar və xidmətlər:**

9.1. İT fəaliyyəti sahəsində göstərilən xidmətlər, o cümlədən kompüter və digər avadanlıqların texniki qulluğu, təmiri, şəbəkələrin quraşdırılması, nəzarəti və sair.

**10. Emitentin işçilərinin sayı və onun rüblük dinamikası:**

10.1. İşçilərinin sayı: 38 nəfər. Hesabat dövrü ərzində işçilərin sayında mühüm dəyişiklik olmamışdır.

**11. Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı:**

11.1. “Syntax” QSC-nin fəaliyyətinə cari rəhbərliyi təkbaşçı icra orqanı olan direktor həyata keçirir. Direktor – **Məmmədov Haşım Sahib oğlu**dur.

**12. Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayrılıqda sayı;**

12.1. Səhmdarlarının sayı: 1 (bir) nəfər fiziki şəxs.

**13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin kapitalında payı:**

| № | Səhmdarların soyadı, adı, atasının adı | Səhmlərin miqdarı | Səhmlərin |
|---|---|---|---|
| 1 | Əlizadə Aqşin Arif oğlu | 20 ədəd adi adlı sənədsiz səhm | 100 % |

**14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı):**

14.1. “Syntax” QSC-nin digər hüquqi şəxslərin nizamnamə kapitalında payı mövcud deyil.

**15. Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat:**

| № | Səhmdarların Ümumi Yığıncağı | Tarixi | Yeri | Qəbul edilmiş Qərarlar |
|---|---|---|---|---|
| 1 | “SYNTAX” MMC-nin Təsisçisinin Qərarı | 04 fevral 2019 | Bakı şəhəri | 1.“SYNTAX” Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN: 1502568721) 2017-ci il üzrə fəaliyyəti nəticəsində əldə edilmiş xalis mənfəətin 88438.00 (səksən səkkiz min dörd yüz otuz səkkiz) manatı tamamilə “SYNTAX” MMC-nin(“Cəmiyyət”) |

| | | | | |
|---|---|---|---|---|
| | | | | səhmdarları arasında bölüşdürülsün.<br>2. Əldə edilmiş xalis mənfəəti Cəmiyyətin səhmdarlarının nizamnamə kapitalındakı mayalarına uyğun olaraq, aşağıdakı qaydada bölüşdürülsün:<br>- Əlizadə Aqşin Arif oğlu – 88438.00 (səksən səkkiz min dörd yüz otuz səkkiz) manat.<br>3. Xalis mənfəətin Cəmiyyətin səhmdarlarına ödənilməsi Azərbaycan Respublikasının qanunvericilik ilə müəyyən olunmuş vergilər tutulduqdan sonra, Cəmiyyətin səhmdarlarının bank hesablarına və ya nağd qaydada bir ay müddətində ödənilsin. |
| 2 | “SYNTAX” MMC-nin Təsisçisinin Qərarı | 11 mart 2019 | Bakı şəhəri | 1. “Syntax” Məhdud Məsuliyyətli Cəmiyyətinin təşkilati-hüquqi forması dəyişdirilərək “Syntax” Qapalı Səhmdar Cəmiyyətinə (bundan sonra “Cəmiyyət”) çevrilsin və nizamnaməsi təsdiq edilsin.<br>2. Çevrilmə ilə əlaqədar təhvil aktı tərtib edilsin və çevrilmə ilə bağlı mətbuatda elan dərc edilsin.<br>3. Cəmiyyətin nizamnamə kapitalı 1900 (bir min doqquz yüz) manat artırılsın və 2000 (iki min) manat məbləğində müəyyən edilsin.<br>4. Cəmiyyətin nizamnamə kapitalı hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 20 (iyirmi) ədəd adi adlı sənədsiz səhmdən ibarət olmaqla 2000 (iki min) manat məbləğində müəyyən edilsin. Cəmiyyətin səhmdarlarının nizamnamə kapitalındakı payları aşağıdakı kimi müəyyən edilsin:<br>4.1. Əlizadə Aqşin Arif oğlu (şəxsiyyət vəsiqəsi AZE № 19203637) – 2000 (iki min) |

| | | | | |
|---|---|---|---|---|
| | | | | manat, hər birinin dəyəri 100 (bir yüz) manat olan 20 (iyirmi) səhm, 100 %.<br>5. Cəmiyyətin təkbaşına icra orqanı qismində direktor vəzifəsi yaradılsın və direktor vəzifəsinə Məmmədov Haşım Sahib oğlu (şəxsiyyət vəsiqəsi AZE № AA0229311) təyin edilsin.<br>6. Dövlət qeydiyyatı məlumatlarında baş vermiş dəyişikliklərin qeydiyyata alınması üçün Azərbaycan Respublikasının Vergilər Nazirliyinə müraciət edilsin. Dövlət qeydiyyatı məlumatlarında baş vermiş dəyişikliklərin qeydiyyata alınması ilə bağlı bütün lazımi sənədlərin hazırlanması, imzalanması, təqdim edilməsi və təhvil alınması, o cümlədən Cəmiyyətin kommersiya hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın alınması, qanunvericiliklə qapalı səhmdar cəmiyyətinin qiymətli kağızlarının emissiyası və bununla bağlı digər hərəkətlərin icra edilməsi üçün<br>- Əliyev Fuad Fətulla oğlu (şəxsiyyət vəsiqəsi AZE № 16662208);<br>- Muxtarov Fərid Fuad oğlu (şəxsiyyət vəsiqəsi AZE № 14353741); və<br>- Babayev Yusif İnqlab oğluna (şəxsiyyət vəsiqəsi AZE № 16229892)<br>etibarnamə verilsin. |
| 3 | "Syntax" QSC-nin Səhmdarlarının Ümumi Yığıncağı | 04 aprel 2019 | Bakı şəhəri | 1. Cəmiyyətin yenidən təşkil edilməsi haqqında Cəmiyyətin Ümumi Yığıncağının 11 mart 2019-cu il tarixli qərarına müvafiq olaraq Cəmiyyətin ümumi məbləği 2000 (iki min) |

| | | | | |
|---|---|---|---|---|
| | | | | manat, hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 20 (iyirmi) ədəd adi adlı sənədsiz səhmləri (bundan sonra "Səhmlər") buraxılsın və müvafiq qaydada dövlət qeydiyyatına alınsın.<br>2. Səhmlər ilə təsbit olunan hüquqlar Azərbaycan Respublikasının Mülki Məcəlləsi və Cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.<br>3. Səhmlərin yerləşdirilməsi qapalı yerləşdirilmə üsulu ilə həyata keçirilsin. |
| 4 | "Syntax" QSC-nin Səhmdarlarının Ümumi Yığıncağı | 15 aprel 2020 | Bakı şəhəri | 1."SYNTAX" Qapalı Səhmdar Cəmiyyətinin (VÖEN: 1502568721) 2018-ci il üzrə fəaliyyəti nəticəsində əldə edilmiş xalis mənfəətin 104676.00 ( Bir yüz dörd min altı yüz yetmiş altı) manatı tamamilə "SYNTAX" QSC-nin("Cəmiyyət") səhmdarları arasında bölüşdürülsün.<br>2. Əldə edilmiş xalis mənfəəti Cəmiyyətin səhmdarlarının nizamnamə kapitalındakı mayalarına uyğun olaraq, aşağıdakı qaydada bölüşdürülsün:<br>- Əlizadə Aqşin Arif oğlu – 104676.00 (Bir yüz dörd min altı yüz yetmiş altı) manat.<br>3. Xalis mənfəətin Cəmiyyətin səhmdarlarına ödənilməsi Azərbaycan Respublikasının qanunvericilik ilə müəyyən olunmuş vergilər tutulduqdan sonra, Cəmiyyətin səhmdarlarının bank hesablarına və ya nağd qaydada bir ay müddətində ödənilsin. |
| 5 | "Syntax" QSC-nin Səhmdarlarının Ümumi Yığıncağı | 22 oktyabr 2019 | Bakı şəhəri | 1. Cəmiyyətin 2019-cu ilin ilk 9(doqquz) ay (3 rüb) üzrə fəaliyyəti nəticəsində əldə |

| | | | | |
|---|---|---|---|---|
| | | | | edilmiş xalis mənfəətin 551000.00 (Beş yüz əlli bir min ) manatı tamamilə Cəmiyyətin səhmdarları arasında bölüşdürülsün.<br>2. Əldə edilmiş xalis mənfəəti Cəmiyyətin səhmdarlarının nizamnamə kapitalındakı mayalarına uyğun olaraq, aşağıdakı qaydada bölüşdürülsün:<br>- Əlizadə Aqşin Arif oğlu – 551000.00 (Beş yüz əlli bir min ) manat.<br>3. Xalis mənfəətin (dividendlərin) Cəmiyyətin səhmdarlarına ödənilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, Cəmiyyətin səhmdarlarına bank hesablarına və ya nağd qaydada bir ay müddətində ödənilsin. |

**16. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):**

| İnvestisiya qiymətli kağızın növü və forması | İnvestisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və tarixi | İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri | İnvestisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri | Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği | Faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi: | İnvestisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda): |
|---|---|---|---|---|---|---|

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | göstərilir): | | |
| Sənədsiz adi adlı səhmlər | AZ1001021299, 20 aprel 2019 | 20 (iyirmi) ədəd, 100 (bir yüz) manat | 2000 (iki min) manat | 636803 manat | İstiqrazlar buraxılmayıb | Mövcud deyil |

**17. Emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:**

17.1. Hesabat dövrü ərzində xüsusi əhəmiyyətli əqdlər bağlanılmamışdır.

**18. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:**

18.1. Hesabat dövrü ərzində aidiyyəti şəxslərlə əqd bağlanılmamışdır.

**19. İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi:**

19.1. 24 iyun 2020-ci il

**20. Hesabatın açıqlanma mənbəyi haqqında məlumat.**

20.1. “Syntax” QSC-nin rəsmi internet səhifəsi: www.syntax.az

**Direktor:** **Məmmədov Haşım Sahib oğlu**

**Baş mühasib:** **Məmmədov Azər Ənvər oğlu**

**Hesabatın hazırlanma tarixi: 24 iyun 2020-ci il**